# YAŞAMAĞA DƏYƏR HƏLƏ

**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli ötən ilin sonlarında "525-ci qəzet"də "Şabranda ədəbi həyat" məqaləsində qeyd edir ki, Azərbaycanda ədəbi-ictimai fikir əsrlər boyu həmişə paytaxtla yanaşı, ayrı-ayrı regionlarda da yaranıb inkişaf etmiş, biri digərini tamamlamışdır.**

Obrazlı şəkildə desək, ictimai-siyasi ideyaların və ədəbiyyatın inkişafında paytaxt dəniz, ümman missiyasını daşımış, regionlar isə dənizə axan çayların funksiyasını yerinə yetirmişdir. Regionlardan axan çaylar dənizi təmiz və coşqun bulaq suları ilə zənginləşdirmişdir. Bu mənada regionlar arteriya damarları kimi ümmanları hərəkətə gətirmək vəzifəsini həyata keçirmişdir.

Regionlarsız paytaxt ədəbi mühiti qurumaq təhlükəsi qarşısında qalan bir dənizə bənzər. Eyni zamanda, paytaxt ədəbi-ictimai mühitində gedən proseslər, formalaşan ümumi məktəblər, səslənən çağırışlar regionlardakı ədəbi gedişatı da istiqamətləndirməlidir.



Şabran ədəbi mühiti də paytaxtətrafı mühit sırasından olan şeir-sənət mərkəzlərindən biridir. Bakıdan Şabrana qədər olan yüz kilometrlik məsafə nəqliyyat baxımından da o qədər əlverişlidir ki, rayonun ədəbi qüvvələri asanlıqla paytaxtdakı yaradıcılıq birlikləri, qəzet və jurnal redaksiyaları, nəşriyyatlarla əlaqə saxlamaq, ünsiyyət qurmaq imkanlarına malikdirlər. Artıq neçə illərdir ki, Şabranda klassik şairimiz Xaqaninin adını daşıyan şeir-sənət ocağı ardıcıl olaraq fəaliyyət göstərməklə davam edir. 2016-cı ildə Şabrandakı qaynar ədəbi mühiti, Xızı və Siyəzən rayonlarını da nəzərə alaraq AYB Şabranda özünün bölməsini də yaratmışdır.

Hörmətli akademikin adı çəkilən məqaləsində deyildiyi kimi Şabranda ölkə miqyasında qəbul edilən və Azərbaycan Yazıçılar Birliyinin bölməsinə çevrilən ədəbi mühitin yaranmasının əsas səbəbi rayona rəhbərlik edən şəxsin həm də ciddi bir yaradıcı sima olması ilə əlaqədardır. Şabran Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov bu vaxta qədər çalışdığı rayonlarda sosial-iqtisadi göstəricilərlə yanaşı, maarif, mədəniyyət və mətbuatın da inkişaf etdirilməsi sahəsində nəzərəçarpacaq nailiyyətlər qazanmışdır. Onun İcra başçısı olduğu rayonlarda yaddaqalan ziyalı mühiti formalaşmışdır. Fikrimcə, bu fərqli bir üslubda çalışan Novruz Novruzovun təkcə işlədiyi rayonda deyil, ölkə miqyasında ədəbiyyat və mədəniyyətin inkişafına xidmətidir.

Hörmətli akademikin qeyd etdiyi kimi Şabranda fəaliyyət göstərən "Xaqani" Poeziya evi nəinki rayon və bölgə, eyni zamanda respublika, beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edib. Növbəti yaddaqalan tədbir Şabran rayonunun Çuxurazəmi İnzibati Ərazi Vahidliyinin Zöhrabkənd kəndində dünya göz açmış, filologiya elmləri doktoru, professor, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri Məmməd Əliyevin 70 illik yubileyi oldu. Yubiley tədbirində rayon rəhbərliyi, görkəmli adlı-sanlı qonaqlar, ziyalılar iştirak edirdilər.

Tədbiri açan AYB Şabran rayon bölməsinin rəhbəri yazıçı-publisist, Aydın Tağıyev tədbir iştirakçılarını salamlayaraq, yubilyara anadan olmasının əlamətdar yubileyi ilə bağlı səmimi təbriklərini çatdırmışdır.

İnstitutun aparıcı mütəxəssisi filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu Məmməd Əliyevin həyat və yaradıcılığı haqqında geniş məlumat vermişdir. Qeyd olunmuşdur ki, M.Əliyev 1970-ci ildə ADPU-nu "əla" qiymətlərlə bitirib Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olur. Burada akademik Məmməd Cəfərin rəhbərliyi altında "Azərbaycan xalq şeirinin forma və növləri" mövzusunda araşdırmalara başlayır. Elmi-tədqiqat işini 1976-cı ildə yekunlaşdıran Məhəmməd müəllim dissertasiyanı uğurla müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi alır.

Məmməd Əliyevin şeirimizin heca vəzninin öyrənilməsi ilə bağlı böyük səbr və həvəslə apardığı tədqiqat işinin nəticəsi uğurlu olur: "Azərbaycan şeirinin ritm vasitələri, qafiyənin təşəkkül və inkişafı (türkdilli xalqların poeziyası ilə tarixi-müqayisəli metodlar əsasında)" mövzusunda elmi-tədqiqat əsəri yüksək qiymətləndirilir və buna görə ona 1985-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsi verilir. Etiraf edilməlidir ki, SSRİ kimi qapalı bir dövlətdə o dövrdə ümumtürk şeiri əsasında araşdırmalar, tədqiqatlar aparmaq alimdən böyük cəsarət tələb edirdi. M.İracoğlu bu işin öhdəsindən ləyaqətlə gəldi...



Mövzu dairəsində şifahi xalq ədəbiyyatının, habelə Y.Balasaqunlunun "Kutad-qu-biliq" əsərindən başlayaraq müasir Azərbaycan poeziyasının nümunələri alim tərəfindən ümumtürk şeirinin intibahı kimi təqdim və tədqiq edildi.

Professor, əməkdar elm xadimi Qəzənfər Paşayev, professor, əməkdar bədən tərbiyəsi və idman xadimi, "Cabir Novruz" Mədəniyyət Fondunun prezidenti professor Cavanşir Qurbanov, Azərbaycan Milli İdman növləri Assosiasiyasının prezidenti, professor Xanlar Qurbanov, professor Şirindil Alışanlı, pedaqoji elmlər doktoru, professor Mübariz Əmirov, şair, əməkdar müəlim Nəcməddin Mürvətov yubilyara öz ürək sözlərini çatdırmaqla yanaşı həm də Şabranın ədəbi mühitindən, Məmməd Əliyevin Azərbaycan ədəbiyyatının inkişafındakı rolundan danışıblar. Qeyd olunub ki, 43 il müxtəlif ali məktəblərdə müəllim, baş müəllim, dosent, professor, həm də filial direktoru kimi Məmməd Əliyevin çapdan çıxan elmi əsərlərinin ümumi sayı 70-dən çoxdur. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda şöbə müdiri vəzifəsində çalışan Məmməd Əliyev Əməkdar müəllim adına layiq görülüb. O, həmçinin "Qızıl qələm" mükafatı laureatıdır. Məmməd müəllim həm də bədii yaradıcılıqla məşğuldur.

"Xaqani" Poeziya evinin direktoru, şairə Aybəniz Əliyar Məmməd Əliyevin bu yaxınlarda çapdan çıxmış "Bir yay günü" povesti haqqında fikirlərini iştirakçılarla bölüşüb.

Şabran rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov Məmməd Əliyevi 70 illik yubileyi münasibətilə təbrik edib, elmi-bədii yaradıcılığında ona uğurlar arzulayıb. Vurğulanıb ki, M.Əliyev ədəbiyyat nəzəriyyəsinin əsasları, Azərbaycan şeirinin vəzn və evfoniya problemləri, şeir sənəti haqqında bir sıra elmi əsərlərin və dərs vəsaitlərinin müəllifidir.

Novruz Novruzov Ulu öndər Heydər Əliyevin və Prezident cənab İlham Əliyevin sənətə, ədəbiyyata, elm xadimlərinə, mədəniyyət xadimlərinə verdikləri böyük dəyərdən ətraflı söhbət açıb.

Yubilyara rayon İcra Hakimiyyəti adından Fəxri fərman və hədiyyə təqdim olunub.

**Göstərilən böyük diqqətə görə və ünvanına söylənən xoş sözlərə görə minnətdarlığını bildirən Məmməd Əliyev bundan sonra da Azərbaycan elminin inkişafında var qüvvəsilə çalışacağını bildirib.**

**Çingiz Xalidoğlu,**
**"Şabran" qəzetinin**
**baş redaktoru**